


# Sinifdə də, səngərdə də QƏHRƏMAN MÜƏLLİMLƏRİMİZ

Azərbaycan müəllimi Vətən müharibəsindən üzüağ, başıuca çıxdı. Həm özü şəhidlik zirvəsinə ucaldı, həm də yetişdirdiyi Vətən övladları bu adı haqq etdilər!

Düşmənə dərs keçən müəllimlərimizi ehtiramla anırıq!



Əvdil müəllim 48 illik ömrünü zəhmətlə yaşayıb. Əvdil Quliyev 1972-ci ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub. Tovuz hadisələrindən sonra ərizə yazaraq əlinə silah almaq, müdafiə qüvvələrimizin sırasında yer tutmaq istəyini bəyan edib və orduya çağırılıb. Cəbhədən-cəbhəyə irəliləyərək Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı istiqamətində döyüşüb. Müharibə bitənə bir neçə gün qalmış - noyabrın 6-da Şuşakənddə şəhid olub. Ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



Qubadlı uğrunda gedən döyüşlərdə Lənkəran şəhər A.Məhərrəmov adına 7 nömrəli tam orta məktəbin müəllimi Emil Qurbanov 5 güllə yarası alaraq şəhadət şərbətini içdi. Ondan geriyə hər birinin həyatında dərin iz buraxdığı yetirmələri, xatirələrində gözəl anlarla yaşayacağı dost-tanışı, bir də vətən əmanəti qızı qaldı.



Karyerasına müəllim kimi başlayıb ehtiyatda olan zabit kimi davam edən və sinifdən səngərə uzanan yolunu şəhadətilə taclandıran daha bir qəhrəman müəllim. İsmayıllı şəhər 3 nömrəli məktəb-liseyin tarix müəllimi Famil Əhmədzadə rayonda yaxşı müəllim kimi tanınırdı. 2020-ci ildə Vətən müharibəsi başlayanda ehtiyyatda olan baş leytenantın da müraciəti dəyərləndirilib və Famil Əhmədzadə də Azərbaycan Ordusunun minlərlə könüllü döyüşçüsündən biri olaraq cəbhəyə yollanıb. Oktyabr ayının 14-də Talış və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıb.



Rəvan Lətifov Vətən müharibəsi başlayanda Sincan kənd tam orta məktəbində təşkilatçı müavin idi. Sentyabrın 29-da Vətən müharibəsində iştirak etmək üçün çağırış vərəqəsi aldı və məktəbi döyüş meydanı ilə əvəz etdi. Qısa döyüş yolu Şuşaya qədər gedib çıxdı. Şuşa uğrunda da döyüşdü və qəhrəmancasına şəhid oldu. Şəhadət xəbərini ailəsi noyabrın 16-da aldı və o, Xaçmaz kəndindəki "Şəhidlər xiyabanı"nda dəfn edildi.

Azərbaycan müəllimi.- 2023.- 29 sentyabr.- S.1.